**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№384/3** **23 dekabr 2025-ci il**

**“2025-ci il ərzində səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditlərin vəziyyətinə dair arayış” barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 1.7-ci “Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə auditlərin aparılması” bəndinə uyğun olaraq Dövlət orqanları və qeyri-hökumət təşkilatları ilə iş şöbəsi (E.Qəmbərov) tərəfindən hazırlanmış “2025-ci il ərzində səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditlərin vəziyyətinə dair arayış”ı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “2025-ci il ərzində səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditlərin vəziyyətinə dair arayış” nəzərə alınsın (əlavə olunur).

2. Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalarda iştirak edən auditorlara tapşırılsın ki, yoxlamaların Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2017-ci il 25 avqust tarixli 289/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalara dair Qayda”nın tələblərinə ciddi riayət edilməklə vaxtında və keyfiyyətlə yerinə yetirilməsi təmin edilsin.

3. Dövlət orqanları və qeyri-hökumət təşkilatları ilə iş şöbəsinə (E.Qəmbərov) tapşırılsın ki:

3.1. auditor təşkilatları və sərbəst auditorlar tərəfindən 2025-ci il ərzində səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditlər üzrə icrası davam etdirilən və gecikdirilən işlərin 2026-cı ilin I rübündə başa çatdırılması təmin edilsin;

3.2. üzrsüz səbəblərdən səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalarda iştirak etməkdən imtina edən auditorların adlarının “Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalarda iştirak edəcək auditorların siyahısı”ndan çıxarılması və daha səriştəli və təcrübəli auditorların həmin siyahıya daxil edilməsi məqsədilə təkliflər iki həftə müddətində Palatanın rəhbərliyinə təqdim edilsin;

3.3. Auditorlar Palatası Şurasının 2023-cü il 13 aprel tarixli 355/4 nömrəli qərarı ilə təsdiq edilmiş “Auditorun Şəxsi Kabineti” sistemində auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətini əks etdirən yarımillik (illik) hesabatın, müqavilələrin və rəylərin qeydiyyatı haqqında Təlimat”a əsasən auditorlar tərəfindən səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan auditlərə dair bağlanılan müqavilələrin “Auditorun şəxsi kabineti” sisteminə daxil edilməsi təmin edilsin.

4. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

Əsli ilə düzdür

**Şuranın sədri** **Vahid Novruzov**